***ÜMÜMMİLLİ LİDER HEYDƏR ƏLİYEV – 100***
***ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ – 100***
***THE NATIONAL LEADER HEYDAR ALIYEV – 100***

***BAŞ REDAKTORDAN***
***ОТ ГЛАВНОГО РЕДАКТОРА***
***FROM THE EDITOR İN CHIEF***



*UOT 371*

***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika elmləri doktoru, professor,*
*Əməkdar müəllim*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*
https://orcid.org/0000-0002-9210-7141

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV MÜASİR GƏNCLƏR SİYASƏTİNİN BANİSİDİR

***Акиф Нурага оглу Аббасов***
*доктор педагогических наук, профессор,*
*Заслуженный учитель*
*ученый секретарь Института Образования Азербайджанской Республики*

# ОБЩЕНАЦИОНАЛЬНЫЙ ЛИДЕР ГЕЙДАР АЛИЕВ – ОСНОВАТЕЛЬ СОВРЕМЕННОЙ МОЛОДЕЖНОЙ ПОЛИТИКИ

***Akif Nuragha Abbasov***
*doctor of pedagogical sciences, professor,*
*Honored teacher*
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan.*

# NATIONAL LEADER HEYDAR ALIYEV – FOUNDER OF MODERN YOUTH POLICY

**Xülasə.** 2 fevral hər il ölkəmizdə Gənclər Günü kimi qeyd edilir. Bu, təsadüfi deyildir. Gənclər siyasəti hazırda respublikamızda həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir. Müasir gənclər siyasətinin əsası isə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur.

***Açar sözlər**: Ümummilli Lider, gənclər siyasəti, müasir gənclər siyasəti, "Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu, Gənclər və İdman Nazirliyi, Gənclərin I Forumu*

**Резюме.** 2 февраля ежегодно в нашей стране отмечается День молодежи. Это не случайно. Молодежная политика в настоящее время является важной частью государственной политики, реализуемой в нашей республике. Основу современной молодежной политики заложил наш общенациональный лидер Гейдар Алиев.

***Ключевые слова:** общенациональный лидер, молодежная политика, современная молодежная политика, Закон Азербайджанской Республики о молодежной политике, Министерство молодежи и спорта, I молодежный форум*

**Summary.** February 2 is annually celebrated in our country as Youth Day. This is no coincidence. Youth policy is currently an important part of the state policy implemented in our republic. The basis of modern youth policy was laid by our national leader Heydar Aliyev.

***Key words**: national leader, youth policy, modern youth policy, Law of the Republic of Azerbaijan on youth policy, Ministry of Youth and Sports, I Youth Forum*

Yaşlı nəsil, orta yaşlı şəxslər cəmiyyətin həyatında, istehsalatın, elmin, incəsənətin, mədəniyyətin müxtəlif sahələrində uğurla çalışır, respublikamızı dünyada ləyaqətlə təmsil edirlər. Çox yaxşı. Gənclər ölkəmizin gələcəyidir. Onları gənc yaşlarından cəmiyyətin idarə olunmasına hazırlamaq lazımdır. Hazırda bu istiqamətdə səmərəli işlər görülür, onlar məsul vəzifələrə irəli çəkilirlər.

Ulu Öndər deyərdi: "Bizim bu günki gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir".

Heç də təsadüfi deyildir ki, hər il 2 fevral ölkəmizdə Gənclər Günü kimi qeyd edilir.

Azərbaycan gənclərinin təşkilatlanaraq ümummilli problemlərin həlli ilə bağlı mübarizə etməsi əslində yeni hadisə deyildir. Bu məsələnin tarixi on doqquzuncu yüzilliyin axırlarına gedib çıxır. Bu barədə Ümummilli Liderimiz daha səhih məlumat verir: "Azərbaycan gənclərinin təşkilatlanaraq ümummilli problemlərin həlli uğrunda mübarizəyə başlaması XIX əsrin sonlarına təsadüf edir. Bu dövrdə bütün dünyada gedən ictimai-siyasi proseslər Azərbaycanda gənclər hərəkatının ümumi strategiyası və ideologiyasının formalaşmasına təkan verərək gəncliyin həyatında dərin iz buraxmışdır. Bununla yanaşı, o zaman Azərbaycanda yaranmış siyasi vəziyyətin, mədəni və ictimai-siyasi mühitin də Azərbaycan gənclərinə güclü təsiri olmuşdur. Azərbaycanda təşəkkül tapmış yeni tipli məktəb, demokratik mətbuat və dünyəvi teatr gənclərin milli-siyasi şüurunun inkişafında müstəsna rol oynamışdır. Avropada və Rusiyada təhsil almış azərbaycanlı gənclərin mədəni və ictimai-siyasi həyatda böyük fəallığı da həmin dövrün səciyyəvi cəhətlərindəndir. Hələ 1902-ci ildə "Müsəlman gənclik təşkilatı" ətrafında birləşən Azərbaycan gəncliyi sonralar Rusiya imperiyasının və Sovet İttifaqının tərkibində olmaqla mövcud geosiyasi məkanın tələbləri çərçivəsində fəaliyyət göstərərək böyük inkişaf yolu keçmişdir" (1, s. 103).

Gənclər siyasəti hazırda respublikamızda həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir.

Müasir gənclər siyasətinin əsası isə Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu siyasətin əsas məramı böyüyən nəslin mənəvi-psixoloji və fiziki baxımdan sağlam yetişməsini, yüksək qabiliyyətli və istedadlı gənclərin aşkarlanmasını və onların respublikamızın gələcəyinə töhfə verməsinə nail olmaqdan ibarətdir.

Ölkəmizdə gənclər siyasəti hazırda da müvəffəqiyyətlə həyata keçirilməkdədir. Cənab İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində milli mənlik şüuruna, milli düşüncəyə, milli qürur, milli iftixar və vətənpərvərlik hisslərinə,

yüksək intellektual səviyyəyə malik gənclər cəmiyyətin həyatında layiqli yer tuturlar.

Dövlətin qayğısı və dəstəyi sayəsində Azərbaycan gəncliyində özlərinə, öz qüvvələrinə inam hissləri çox artmışdır.

Hazırda gənclər cəmiyyətin aparıcı qüvvəsi kimi diqqət mərkəzinə gətirilir. Madam belədirsə, deməli, inkişaf və inteqrasiya da onların ünvanına yazılmaqdadır.

Ulu Öndər gənclərə aid məsələləri daim öz siyasətinin başlıca tərkib hissələrindən biri kimi nəzərdən keçirirdi. Belə ki, 1969-1982-ci illərdə ölkəmizə rəhbərliyi dövrlərində çoxsaylı tədris müəssisələri, hərbi məktəblər, gənclər mərkəzləri açılmışdı.

Ümummilli Liderin təşkilatçılığı ilə 15 mindən artıq gənc keçmiş ittifaqın sayılıb-seçilən ali məktəblərində (50-dən çox şəhərin 170 ali məktəbində) 80-ə yaxın sahəni özündə birləşdirən 150 ixtisas üzrə təhsillə əhatə olunmuş, yeni ixtisaslar almışlar.

Heydər Əliyev Azərbaycan gənclərinin I forumunda bu xüsusda demişdir: "Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 70-ci ildən başlamışdıq. Mən bu gün çox məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyini düşünürdüm".

1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev bir daha gənclərlə işi diqqət mərkəzində saxlamış, 6 may 2002-ci il tarixli Sərəncamla "Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu"nu (2) imzalamışdır. Bu qanun 3 fəsildən və 14 maddədən ibarətdir.

Qanunun I fəsli "Ümumi müddəalar", II fəsli "Gənclər siyasətinin əsas istiqamətləri", III fəsli "Gənclər siyasətinin həyata keçirilməsinin təşkilati, maddi və maliyyə təminatı" adlanır.

Qanunun "Əsas anlayışlar" adlı birinci maddəsində "gənclər siyasəti" anlayışına aydınlıq gətirilir. Göstərilir ki, "gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədi ilə dövlət tərəfindən ictimai-siyasi, sosial-iqtisadi, təşkilati-hüquqi şəraitin və təminatların yaradılmasına yönəlmiş tədbirlər sistemi"dir (2).

Bu qanunda gənclər yaşı barədə (gənclər - yaşı 14-dən 29-dək olan şəxslər) məlumat almaq mümkündür.

Qanunun 3-cü maddəsində da "Gənclər siyasətinin məqsəd və prinsipləri" öz əksini tapmışdır. Qeyd olunur ki, "3.1. Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına, sosial problemlərinin həllinə və hüquqlarının müdafiəsinin təmin olunmasına kömək etməkdir" (2).

3-cü maddənin 2-ci bəndində "Gənclər siyasətinin əsas prinsipləri aşağıdakı şəkildə aydınlaşdırılır: "3.2.1. Gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması;

3.2.2. cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında gənclərin fəal iştirakının təmin edilməsi, onların intellektual və yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunması;

3.2.3. gənclər siyasətinin həyata keçirilməsi zamanı qadın və kişilərin hüquq bərabərliyinə riayət edilməsi;

3.2.4. qanunvericilikdə müəyyən edilmiş hallar istisna olmaqla, yaşa görə gənclərin hüquq və azadlıqlarının hər hansı şəkildə məhdudlaşdırılmasının yolverilməzliyi" (2).

Eyni zamanda gənclər siyasətinin həyata keçirilməsi sahəsində dövlətin vəzifələri (maddə 4) ilə də tanış olmaq mümkündür. Diqqət yetirək:

"4.0.1. gənclər siyasəti sahəsində qanunvericilik aktlarının, dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi;

4.0.2. hüquqi və fiziki şəxslərin gənclərlə iş sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi;

4.0.3. gənclərin təhsili, tərbiyəsi, fiziki, əqli və mənəvi inkişafı, sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi;

4.0.4. gənclərin peşə hazırlığı, məşğulluğunun təmin olunması, sahibkarlıq fəaliyyəti, bazar iqtisadiyyatının əsaslarına dair biliklərə yiyələnməsi sahəsində tədbirlərin həyata keçirilməsi;

4.0.5. gənclər siyasəti sahəsində informasiya təminatının həyata keçirilməsi;

4.0.6. gənclərin hərbi xidmətə hazırlanması;

4.0.7. gənclər siyasəti sahəsində tədbirlərin maliyyələşdirilməsi;

4.0.8. gənclərin vəziyyətinin təhlili və problemlərinin həlli ilə əlaqədar elmi araşdırmaların aparılmasının təşkili;

4.0.9. Azərbaycan gənclərinin beynəlxalq tədbirlərdə iştirakına, dünya gəncləri ilə, o cümlədən xarici ölkələrdə yaşayan gənc həmvətənlərlə qarşılıqlı əlaqələrinin inkişafına imkan və şəraitin yaradılması;

4.0.10. dünya gəncləri arasında sülhün, qarşılıqlı anlaşmanın və əməkdaşlığın gücləndirilməsi, gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial və humanitar sahələrə yönəldilmiş fəaliyyətin stimullaşdırılması məqsədi ilə Gənclər Fondunun yaradılması

4.0.11. gənclər siyasəti sahəsində kadrların hazırlanmasının təmin olunması;

4.0.12. istedadlı və yaradıcı gənclərin aşkar edilməsi və inkişafına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

4.0.13. gənclərə ailə planlaşdırılması və reproduktiv sağlamlıq sahəsində biliklərin verilməsi, bu sahədə xidmət göstərən müəssisələrin işinin təkmilləşdirilməsi" (2).

"Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu"nun II fəslində "Gənclər siyasətinin əsas istiqamətləri" özünə yer almışdır. Həmin istiqamətləri nəzərdən keçirək:

"Maddə 5. Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı

5.1. Müvafiq icra hakimiyyəti orqanları gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi məqsədi ilə hərbi-tətbiqi idman növlərinin və hərbi-idman oyunlarının keçirilməsi, gənclərin mədəni-kütləvi tədbirlərə cəlb edilməsini.

5.2. Dövlət gənclərin dünyagörüşünün formalaşmasına, mənəvi-əxlaqi tərbiyəsinə yönəlmiş televiziya və radio verilişlərinin, teatr tamaşalarının və filmlərin hazırlanmasına, ədəbiyyatın və mətbuat orqanlarının nəşrinə kömək göstərir.

5.3. Müvafiq icra hakimiyyəti orqanları gənclərin mənəvi-əxlaqi tərbiyəsi, onlar arasında cinayətkarlığın, narkomaniyanın və digər mənfi meyllərin azaldılması və aradan qaldırılması, habelə cəzaçəkmə müəssisələrindən azad edilmiş gənclərin sosial adaptasiyası üçün tədbirlər həyata keçirirlər.

5.4. Gənclərin və gənclər təşkilatlarının teatr, konsert və sərgi salonlarından, yaradıcılıq emalatxanalarından, studiyalardan, laboratoriyalardan istifadəsi üçün müvafiq icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən güzəştlər müəyyən edilə bilər.

5.5. Gənclər arasında vətənpərvərlik işinin gücləndirilməsi, onların ahəngdar inkişafı və asudə vaxtının təşkili, gənclərə psixoloji reabilitasiya, hüquqi və informasiya yardımlarının göstərilməsi məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsi yaradılır" (2).

Fəsillərə daxil olan ayrı-ayrı maddələrdə "İstedadlı gənclərə dövlət qayğısı (maddə 6); "Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı" (maddə 7); "Gənclərin məşğulluğunun təmin edilməsi" (maddə 8); "Gənc ailələrə dövlət yardımı" (maddə 9); "Gənclər təşkilatlarına dövlət yardımı" (Maddə 10); "Gənclər siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində gənclərin iştirakı" (maddə 11); "Gənclər siyasətinin həyata keçirilməsində yerli özünüidarəetmə orqanlarının iştirakı" (maddə 12); "Gənclər siyasətinin həyata keçirilməsinin maddi və maliyyə təminatı (maddə 13); "Yekun müddəaları" (maddə 14) öz ifadəsini tapmışdır.

"Gənc ailələrə dövlət yardımı" adlı 9-cu maddə ilə tanış olaq:

"9.1. Yaşayış evi tikmək və ya mənzil almaq, ev təsərrüfatı yaratmaq üçün gənc ailələrə həcmi və verilmə qaydası qanunvericiliklə müəyyən edilən güzəştli ipoteka kreditləri və ssudalar verilir.

9.2. Müvafiq icra hakimiyyəti orqanı gənc ailələrlə bağlı sosioloji-tədqiqat işlərinin aparılmasını təmin edir və informasiya bankını yaradır" (2).

Ölkəmizdə gənclər siyasətinə böyük önəm verilməsinə bariz nümunə gənclərin təşkilatlanması məqsədilə dövlət başçısı tərəfindən 1994-cü il 26 iyul tarixində Gənclər və İdman Nazirliyinin yaradılması barədə fərmanın imzalanması; 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumu idi.

Gənclərin I Forumunda Ümummilli Lider Heydər Əliyev gənclər və idman siyasəti ilə bağlı respublikada həyata keçirilən işlərdən söz

açdı, gəncliyin qarşısında mühüm vəzifələrin dayandığını bildirdi.

Gənclər və İdman Nazirliyinin yaradılması nəticəsində dövlətin gənclərlə bağlı siyasəti artıq vahid mərkəzdən idarə olunmağa başladı. Bu barədə Heydər Əliyev deyirdi: "Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirilmiş, nazirliyin yerli strukturları formalaşmış, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının (1, s. 105) fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görülmüş, bir sıra dövlət proqramları hazırlanmışdır" (1, s. 106).

Ümummilli Lider Heydər Əliyevin 29 iyul 1999-cu il tarixli sərəncamı ilə ölkəmizdə dövlət gənclər siyasətinin reallaşması və gənclərlə bağlı problemlərin həllində dövlət orqanlarının məsuliyyətini artırmaq üçün qərara alındı:

"1. Azərbaycan Respublikasında dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilsin.

2. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində gənclərin problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi yaradılsın.

3. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi gənclərin problemləri üzrə Elmi Araşdırmalar Mərkəzinin əsasnaməsini bir ay müddətində hazırlayıb təsdiq olunmaq üçün Nazirlər Kabinetinə təqdim etsin.

4. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi dövlət gənclər siyasətinin həyata keçirilməsinin gedişi haqqında hər təqvim ilinin sonunda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına arayış təqdim etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu fərmandan irəli gələn məsələləri həll etsin və dövlət gənclər siyasətinin həyata keçirilməsi ilə bağlı tədbirlər planının yerinə yetirilməsinə nəzarət etsin" (1, s. 106).

**Problemin aktuallığı**. Heydər Əliyev irsi həmişə öz aktuallığı və faydalılığı ilə diqqət mərkəzində dayanmışdır və daim diqqət mərkəzində olacaqdır.

**Problemin yeniliyi**. Heydər Əliyev müasir gənclər siyasətinin banisi kimi nəzərdən keçirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 21-ci kitab. Bakı: Azərnəşr, 2007, 480 s.
2. https://mys.gov.az/qanunvericilik/qanunlar/5/gnclr-siyasti-haqqinda-azrbaycan-respublikasinin-qanunu

**E-mail**: a.abbasov@arti.edu.az
**Rəyçilər**: *ped.elm.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 03.07.2023